# ÇEXOVUN EV MUZEYLƏRİ

Görkəmli yazıçı Anton Pavloviç Çexov rus ədəbiyyatında silinməz iz buraxan yazıçılardandı. Lev Nikolayeviç Tolstoy, Çexovun yardıcılığı haqqında belə yazırdı: "Əgər Çexovun hekayələri qalmaqla, bütün rus ədəbiyyatı təsadüf nəticəsində yoxa çıxsaydı, onlar rus həyatı barədə dünya xalqlarında təsəvvür yaratmaq üçün kifayət edərdi". Yazıçı ömrü boyu müxtəlif şəhərlərdə yaşamış və həmin evlərdə sonralar muzey yaradılmışdır. Bu muzeylər Çexov yaradıcılığının müxtəlif məqamları, həyatını, yaşam tərzini, oxuduğu kitablar, sevdiyi məşğuliyyətləri haqda bizə məlumat verir.

Anton Pavloviç Çexovun ilk ev muzeyi 1912-ci ilin 25 aprelində Moskvada yazıçının ailəsinin göstərdiyi təşəbbüs nəticəsində Rumyansovo muzeyinin nəzdində yaradılmışdır. 1934-cü ildə Çexova aid olan kolleksiya Dövlət Ədəbiyyat Muzeyinə verildi.

1874-cü ildə ilk də inşa edilmiş bu ikimərtəbəli fligeli (əsas binanın yanında tikilmiş ev və ya əlavə tikili, bina - X.A) Çexovgil məşhur həkim Y.A.Korneyevdən icarəyə götürmüşdü. Yazıçı burada 1886-cı ilin 27 avqustundan 1890-cı ilin aprelində Saxalin adasına köçənə qədər yaşamışdır.

Yazıçı "İvanov", "Qulyabanı", "Toy", "Çöl", "İşıqlar", "Darıxdırıcı əhvalat" əsərlərini məhz burada yazmışdır. Çexovun "kamod-ev" adlandırdığı həmin bu evdə V.Q.Korolenko, V.A.Qilyarovski, İ.İ.Levitan, F.O.Şextel, P.İ.Çaykovski, A.İ.Sumbatov-Yujin, V.İ.Nemiroviç-Dançenko və s. kimi ədəbiyyatçılar, aktyorlar, musiqiçilər qonaq olmuşlar.

Kabinetdə uzaq keçmişə şahidlik edən əşyalar - yazı masası, əjdaha formasında bir cüt lampa, balıq tutmaq üçün ləvazimatlar, deyilənlərə görə xanım pasiyentin ona hədiyyə etdiyi at fiqurlu mürəkkəbqabı xüsusi maraq doğurur. Çexov burada həm hekayələr yazır, həm də hər gün saat 12-dən 15-ə kimi xəstələri müayinə edirdi. Qalan bütün boş zamanını, özü də qeyd etdiyi kimi ədəbiyyatla, teatrla maraqlanan gənclərlə keçirirdi.

Muzeydə Çexovun sağlığında çap olunmuş nəşrləri, özünün və doğmalarının şəkilləri, ailə əşyaları, teatr afişaları və fototiplər saxlanılır. Ayrıca bir zal isə Çexovun Saxalin adasına səfərinə həsr olunmuşdur.

Melixovada A.P.Çexovun ev muzeyi təşkil olunmuş, Serpuxov ölkəşünaslıq muzeyinin filialı kimi fəaliyyətə başlamışdı.

Müharibə illərində muzeyin fəaliyyəti dayansa da, 29 iyun 1944-cü ildə artıq müstəqil "Anton Pavloviç Çexov adına rayon muzeyi" yaradıldı. 1950-ci ildən malikanədə bərpa işləri başladı və 1960-cı il 29 yanvar tarixində - Çexovun yüz illik yubileyi ərəfəsində başa çatdı. Elə həmin ildə Rusiya Sovet Federativ Sosialist Respublikasının qərarı ilə muzeyə A.P.Çexovun dövlət ədəbi-memorial qoruq muzeyi statusunu verdilər.

Yazıçının qohumları sayəsində ev A.P.Çexov və onun ailəsinə aid müxtəlif xatirə əşyaları ilə zənginləşdi.

Hal-hazırda qoruq-muzeyə əsas malikanə evi, memorial fligel, mətbəx-fligel, hamam, çoxsaylı təsərrüfat tikililəri, yanğın sayaşayan zamanlarda almışdılar. Kabinetdə yazı masası var. Masanının üstünə qələm, karandaş, mürəkkəb qabı və Çexovun sevimli gözlüyü qoyulub.

Muzeydə "Nadir kitab" kolleksiyası da saxlanılır. Ora yazıçının da avtoqraflı kitabları var.

Muzeyin təsviri fonduna İ.Levitan, V.Polenov, N.Çexov, M.Çexovun rəsm və qrafik işləri, Y.Kumankov, V.Levental, Y.Kaçelayeva, E.Senberq kimi teatr rəssamlarının əl işləri, rəssam Kukrıniskovun A.P.Çexov əsərlərinə çəkdiyi illüstrasiyalar, Q.Motovilov, M.Anikuşin, İ.Rukavişnikova aid heykəltəraşlıq portretlərindən ibarət mükəmməl bir toplu daxildir.

Hər il muzeyə yeni eksponatlar əlavə olunur. Muzeydəki əşyalar vaxtaşırı müxtəlif yerlərdə sərgilənir. Kolleksiyaya nəyinki Rusiyanın muzeyləri, hətta xarici dövlətlərin muzeyləri də maraq göstərirlər. 1998-2014-cü illərdə muzey öz eksponatlarını Almaniya, Macarıstan, Bolqarıstan, Serbiya, Fransa, Belarusiyada belə təqdim etmişdi.



2006-cı ildən muzeydə "Çexov studiyası" adlı teatr da fəaliyyət göstərir. Teatrda A.P.Çexov ("Ayı", "Dəlilər",) və digər yazıçıların əsərləri əsasında tamaşalar qoyulur.

Muzeydə A.P.Çexov adına Beynəlxalq teatr məktəbi də fəaliyyət göstərir. Burada məşhur aktyor və rejissorlar teatr məktəblərinin tələbələri ilə məşğul olur və onlara ustad dərsləri verirdilər. Xüsusən də rejissor, aktyor, rus kinosunun ustadı sayılan N.S.Mixalkovun verdiyi "dərs" ən çox yadda qalan olmuşdur.





## DÖVLƏT ƏDƏBİ-MEMORİAL QORUQ-MUZEYİ - MELİXOVO

Çexovun Dövlət ədəbi-memorial qoruq-muzeyi Melixovo rus ədəbiyyatının ən yaxşı səhifələrindən biridir. Anton Pavloviç Çexov 1892-1899-cu illər ərzində ömrünün yeddi ilini burada yaşayıb. Melixovadakı həyatı yazıçı ilə yanaşı vəba xəstəliyinə tutulmuş çoxlu sayda xəstəni pulsuz müayinə edən həkim, ictimai xadim, məktəb inşaatçısının bir arada yaşaması ilə maraqlı idi.

Çoxlu sayda tanışlıqlar, kəndlərdə baş verən əhvalatlar və "Qəza məktəbi S." - bütün bu Çexov əsərlərinin süjeti Melixov dövrünə təsadüf edir. Burada ömür sürdüyü zamanda o, 42 şah əsərini - "Vanya dayı" və "Qağayı" pyesləri, "6№li palata", "Saxalin adası", "Kürsülü ev", "Mənim həyatım", "Qılaflı adam", "Mormutu", "Sevgi haqqında", "Kəndlilər" və s. hekayə və povestlərini qələmə almışdır.

1899-cu ildə səhhəti ilə əlaqədar olaraq Anton Pavloviç Yaltaya köçməli olur. Melixova isə satılır. Uzun zaman çərçivəsində burada muzey olmamasına baxmayaraq, malikanə hər zaman Çexov istedadının vurğunlarını özünə cəlb edirdi.

Melixovada muzey 1940-cı ildən etibarən fəaliyyətə başladı. Bu zamana memorial tikililərdən bircə 1894-cü ildə A.P.Çexov tərəfindən tikilmiş fligel qalmışdı. "Qağayı" pyesini yazıçı həmin fligeldə yazmışdı. 1940-cı il martın 14-də Moskva vilayət sovetinin zəhmətkeşlər deputatlarının qərarı ilə rayı, köhnə tibb məntəqəsi "Ambulatoriya"nın ekspozisiyası, böyük bağ ərazisi aiddir.

A.P.Çexovun tikdirdiyi iki məktəb binası da 1970-ci ildən muzeyə verilmişdi. Melixovo məktəbində unikal ekspozisiyalar - "Köhnə zemstvo məktəbinin sinfi" və "Müəllimənin mənzili" var.

1987-ci ildə Çexov şəhərində "A.P.Çexovun məktubları muzeyi" yaradıldı. Ekspozisiya köhnə poçt şöbəsinin binasında yerləşir. Laposnya stansiyasında (indiki Çexov şəhəri) həmin bu poçt bölməsi 1896-cı ildə elə yazıçının təşəbbüsü ilə açılmışdı. Burada köhnə poçt, Anton Pavloviçin məktub və yazışmaları var. Muzeydə uşaqlar arasında "Canlı məktub" adlı interaktiv məşğələlər keçirilir. Həyətdə isə Çexovun heykəli var. O, gözəl heykəltaraş M.K.Anikuşinin əl işidir.

Çexov şəhərində yerləşən Köhnə "Lopasnya-Zaçetevskaya" malikanəsi də muzeyin filialı oldu. Burada uzun illər boyu görkəmli rus zadəganları - Vasilçikovlar, Lanskilər, Puşkinlər, Qonçarovlar yaşamışlar.

1850-ci illərdə bu evdə Aleksandr Sergeyeviç Puşkinin uşaqları yaşayıb. Onun "Böyük Pyotrun tarixi" əlyazmasının arxivi burada saxlanılırdı. Həmin arxiv 1817-ci ilə aşkarlanmışdı.

Bugünkü gündə muzeyin kolleksiyasında 30000 əşya var. Bura Çexovdan qalma unikal yadigarlar-- A.P.Çexov və onun doğmalarına aid avtoqraflar, şəkillərinin əsli, xatirə əşyaları daxildir.

Ekskursiyaya gələnlərin marağını hər zaman daha çox Anton Pavloviçin paltosu, şlyapası, məşhur ağ kartuzu (qabağı günlüklü furajka, papaq - X.A), köynəyi və kəpənək-qalstuku çəkir. Qonaq otağında düm ağappaq süfrə salınmış masanın üstünə serviz düzülüb. Həmin servizi onlar Melixovada

## YALTADAKI "AĞ BAĞ" EV MUZEYİ

1921-ci ildən etibarən A.P.Çexovun Yaltadakı "Ağ Bağ"ı ev muzeyi kimi fəaliyyət göstərir. Yazıçı 1898-ci ildə Yaltaya köçmüş, 1 il müddətində burada vahid arxitektor amsablı təşkil edən ev və fligel tikdirmişdir. 1899-cu ilin avqustundan 1904-cü ilin may ayına qədər burada anası və bacısı ilə yaşamışdır. Həyat yoldaşı - Moskva Bədii Teatrının aktrisası Olqa Leonardovna Knipper -Çexova bura yalnız tətillərdə gəlirdi. "Yarğanda" povesti, "İt gəzdirən xanım" "Arxierey", "Gəlin" hekayələri, "Üç bacı" və "Albalı bağı" pyeslərini məhz burada qələmə almışdır.

Çexovun "Ağ bağ" ev muzeyində əsas fondda 16600-dan çox əşya və 7300-dən çox elmi material saxlanılır. Xatirə toplusuna A.P.Çexovun şəxsi fondu və doğmalarından (bacısı M.P.Çexova, həyat yoldaşı O.L.Knipper-Çexova, anası Y.Yakovlevna, qardaşları və b.) qalan yadigar əşyalar daxildir.

Yazıçının şəxsi fondu XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid edilir. Lakin yazılı mənbələr daha öncəki tarixlərə gedib çıxır. Məsələn, İvan Vinoqradovun məktubu 6 avqust 1825-ci il tarixində qeydə alınaraq, XIX əsrin əvvəllərinin epistolyar janrına aid edilir.

Çəkdirdiyi fotolar Çexovun bütün həyatını əhatə edir. Onlara əsasən ildən ilə Çexovun cizgilərinin necə dəyişdiyinin şahidi ola bilərik. Bundan başqa müxtəlif avtoqraflar, açıqca-məktublar, fotolardakı yazılar, Yalta xeyriyyə cəmiyyətinin kitabçasından qəbzlər, Melixova kitabxanasının 787 səhifədən ibarət siyahısı da saxlanılır.

Çoxsaylı avtoqraflar içində dəniz çınqılının üzərində olan avtoqraf var: "Mənim qəlbimdən düşən bu daş Anastasiya Lavrovnaya aiddir. 99.14/III. Anton Çexov". Sənədli fondda yazıçının xeyriyyə və ictimai fəaliyyəti, "Ağ bağ"ın tikilməsi, malikanənin həyətyanı sahəsinin abadlaşdırılması, yeni ev üçün lazımi əşyaların alınması ilə bağlı materiallar saxlanılır. Muzeydə kitab tərtibatının nümunələri və onların çapı üçün çəkilən xərclərin smetası, əsərlərindən aldığı qonorarların hesabı, "Novoye vremya" ("Yeni zaman") qəzeti, "Oskolki" ("Zərrələr") və "Strekoza" ("İynəcə") qəzetlərindən gəlmiş müxtəlif məbləğ qeyd olunan zərflər də qorunur.

Muzeyin kitab fondu təxminən 450 nüsxədən ibarətdir. Bura rus və xarici klassiklərin əsərləri (A.S.Puşkin, L.N.Tolstoy, M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turqenyev, F.M.Dostoyevski, U.Şekspir, V.Höte), A.P.Çexovun Nis şəhərindən (Fransa) anası Y.Y.Çexovaya ünvanladığı açıq məktub, tibbi ədəbiyyat, bələdçilər, məlumat kitabçaları və lüğətlər aiddir. Kitabların çoxunda yazıçının avtoqrafları və ya ekslibrisləri (kitab cildinin içəri tərəfində yapışdırılan və kitab sahibinə aid olan bədii nişan - X.A.) var. Bir sıra rəf kitab isə Çexovun mətnlərdəki qeyd və düzəlişlərindən ibarətdir.

"O anladı!" hekayəsinin "Priroda i oxota" ("Təbiət və ov") jurnalında (1883, IV tom, № 11) ilk dərci qorunub saxlanılmışdır. A.S.Puşkinin 10 cildlik əsərlərində (A.S.Suvorinin 2-ci nəşri, S.-Peterburq. 1887) "Çar Saltan haqqında hekayələr" və V.Q.Korolenkonun "Oçerk və hekayələr" toplusundakı ("Russkaya mısl" juranalı redaksiyasının nəşri, Moskva, 1887) "Meşə uğuldayır" əsərlərinin mətnlərindəki qeydlər həddindən çox maraq kəsb edir. Çexovun "İmperator Mark Avrelinin özün üçün vacib olanlar haqqında düşüncələri" (Knyaz L.Urulovun tərcüməsi. Tula.1882) kitabında apardığı qeydlər xüsusi elmi dəyər kəsb edir.

A.P.Çexovun şəxsi və yazıçılıqla bağlı bütün əşyaları, evinin avadanlığı tam şəkildə qorunu- saxlanılıb. XIX əsrin sonu XX əsrin əvvəllərinə aid bir çox ölkələrin - Qərbi Avropa, ABŞ, Kanada, Yaponiya, Şərq ölkələri, Latın Amerikası, Cənub-Şərqi Asiya, Avstraliya və həmçinin də Rusiya imperiyasına aid 30 bağlama poçt markası muzeydə qorunur.

Çexov fonduna yazıçının ətrafında olanların - A.M.Qorki, F.İ.Şalyapin, İ.İ.Levitan, Moskva Bədii teatrının artistlərinə aid materiallar daxildir. Bu materiallar avtoqrafli kitablar, rəsmlər, şəxsi əşyalar, sənədlər, əlyazmalardır. Uzun illər boyunca Rusiya, Qərbi Avropa və Krımda Çexova aid məkanların şəkli olan açıqcalar, yazıçının zəmanəsinə xarakterik olan müxtəlif əşyalar da toplanılmışdır.

Muzeydəki xatirə əşyaları ədəbiyyatşünas və muzeyşünasların, naşir və teatr xadimlərinin, rejissor və rəssamların, həmçinin Çexovun həyat və yaradıcılığı ilə maraqlanan hər bir kəsin tədqiqat mənbəyi olmuşdur.

**İnternet materialları əsasında tərcümə edən və hazırlayan: Xanım Aydın**